

# Heydər Əliyev dərsləri

**(əvvəli "Xalq qəzeti"nin 2023-cü il 7, 13, 15, 17 may, 24, 26 iyun və 4 iyul nömrələrində)**

## "Mənim özüm 30 il bundan əvvəlki yorğanda yatıram"

Ölkə İqtisadiyyatındakı vəziyyətə həsr olunmuş müşavirələrin birində Heydər Əliyev "İstehlak səbəti" barədə məsələnin müzakirəsi zamanı təkliflərdən birinə belə münasibət bildirmişdi.

Vahid Axundov nəyi isə əsas tutaraq hesabladığı 37 min manatlıq "istehlak səbəti"ndən söz saldı. O, buraya 500 adda şey daxil etmişdir. Bu ki, lap padşah yaşayışı olur! Yaxud hər adama gündə bir kiloqram ağartı məhsulları nəzərdə tutur. Lap yaxşı vaxtlarda belə, burada oturanların hansı biri gündə bu qədər ağartı yeyib? Onun təklif etdiyi "istehlak səbəti"ndə hisə verilmiş kolbasa da nəzərdə tutulmuşdur. "Durğunluq dövrü" adlandırılan keçmiş illərdə mağazalarda belə kolbasa yox idi. İndi isə bu ağır dövrümüzdə belə kolbasa yemək istəyirsən? Axı, bu sənin heç boğazından da keçməz. Əgər sən onu yesən, sonra gəlib boğazından yapışacaqlar ki, camaatın çörək almağa pulu yoxdur, sən isə bu cür kolbasa yeyirsən. Yaxud sən deyirsən ki, hər adam ildə bir dənə yorğan almalıdır. Mənim özüm 30 il bundan əvvəlki yorğanda yatıram. Axı kim ildə bir yorğan alır? Eləcə də balış. Onun da yalnız üzünü dəyişdirirlər. Hətta, müstəqil respublikamız gələcəkdə zəngin yaşayanda da belə şeylərin mümkünlüyünə şəxsən mən inanmıram. Əgər hansısa milyonçular bunu edəcəklərsə, deyə bilmərəm. Şübhəsiz ki, biz əhalini təmin etməliyik, ancaq, bu, imkan daxilində olmalıdır.

## "Mən Sovetlər İttifaqının dağılmasını istəmişəm"

ABŞ-a səfəri zamanı  jurnalistlər Heydər Əliyevin SSRİ-nin dağılmasına münasibəti ilə maraqlanmışdılar. Ulu öndər ABŞ-da çıxan "Hyüston xronikal" qəzetinə müsahibəsində bu barədə danışmışdır.

**Sual:** Cənab Prezident, Siz Sovet İttifaqının rəhbərlərindən biri olmusunuz. İndi isə Azərbaycanın rəhbərisiniz. Xahiş edirəm, deyəsiniz: Azərbaycan xalqı Sovet İttifaqının dağılmasından fayda götürəcəkmi?

**Cavab:** Mütləq! Biz Sovetlər İttifaqının tərkibində olarkən Azərbaycan xalqı öz sərvətlərinin sahibi deyildi. Azərbaycanda neft istehsalının 200 illik tarixi var. 1920-ci ildə Sovetlər İttifaqı yaranan zaman bu böyük ölkənin neftə tələbatının təxminən 90 faizini Azərbaycan ödəyirdi. Ancaq biz bu neftdən özümüz istədiyimiz kimi istifadə edə bilmirdik. Hasil edilən neftin hamısı Sovetlər İttifaqının tələbatının ödənilməsinə sərf olunurdu. Respublikamızın digər təbii sərvətləri, potensial imkanları da SSRİ-nin tələbatının ödənilməsinə sərf edilirdi. Amma indi biz müstəqil dövlətik. Bu müstəqillik Azərbaycan xalqı üçün bütün sahələrdə tarixi əhəmiyyət daşıyır. Yeri gəlmişkən deyim ki, iş təkcə bu təbii sərvətlərdən istifadə edilməsi ilə bitmir. Biz tam müstəqil bir dövlətik. Azərbaycan dünya birliyində müstəqil dövlət kimi özünəməxsus yer tutur. Bunun mənəvi əhəmiyyəti maddi əhəmiyyətindən daha da çoxdur. Sovetlər İttifaqının vaxtilə rəhbər şəxslərindən biri kimi deyə bilərəm ki, mən Sovetlər İttifaqının dağılmasını istəmişəm və Azərbaycanın dövlət müstəqilliyi əldə etməsinin arzusunda olmuşam. İndi biz buna nail olmuşuq. Bu, bizim üçün tarixi hadisədir.

## "Ölkələri dinə görə bölmək cinayətdir"

Rusiyanın Ermənistanı Cənubi Qafqazda yeganə müttəfiqi hesab etməsini ulu öndər müəyyən dərəcədə din amili ilə  əlaqələndirmişdi.

Aris Qazinyan (Ermənistan): Cənab Prezident, bilmək istərdim, rəsmi Bakı Ermənistan Respublikasına necə baxır? Mən burada eşitdim və gördüm ki, Sizin müşaviriniz – hörmətli cənab Quluzadə də, əslində, qeyd etdi ki, erməni milli şüuru Moskvanın təsiri altında formalaşır. Bilmək istərdim, rəsmi Bakı Ermənistanı Rusiyanın Qafqazda əlaltısı hesab edirmi?

**Heydər Əliyev:** Bilirsiz, siz çox kəskin ifadələr işlədirsiniz. Nə eşitmisiniz, eşitmisiniz. Mən burada nəsə deyə bilmərəm, bunu özümə rəva görmürəm. Ancaq fakt faktlığında qalır, Rusiyanın Ermənistanda silahlı qüvvələri, hərbi bazaları var. Ermənistanda sərhəd xidmətini əsasən Rusiya sərhədçiləri çəkirlər, amma təbii ki, Ermənistan sərhədçilərinin iştirakı ilə. Bu fakt özlüyündə onu göstərir ki, ölkənin suverenliyi müəyyən dərəcədə pozulmuşdur. Əlbəttə, bu, ölkənin öz işidir, buna yol verə də bilər, verməyə də. Məsələn, Moskvada da bəziləri deyirlər ki, bilirsinizmi, Ermənistan Cənubi Qafqazda bizim yeganə dayağımız və müttəfiqimizdir. Əlbəttə, bizə o da toxunur ki, məsələn, bəzən kimsə deyir ki, bu, xristian ölkəsidir. Başa düşürsünüzmü, XX əsrin sonunda ölkələri dinə görə bölmək, sadəcə olaraq, cinayətdir. Təəssüf ki, biz Rusiyada bu cür səslər eşidirik. Ermənistanın xristian ölkə olmasının məsələyə dəxli yoxdur. Amma nə olsun, belə bəyan edirlər, özü də yüksək vəzifəli adamlar bəyan edirlər. Xalq xristianlığa etiqad edir. Doğrudur. Azərbaycanda xalq müsəlmanlığa etiqad edir. Doğrudur. Axı bunu biz yaratmamışıq. Əcdadlarımız hələ çox-çox əsrlər əvvəl bu cür din qəbul etmişlər. İndi buna görə biz bir-birimizlə düşmənçilik etməli, inamsızlıq göstərməli, yaxud hesab etməliyik ki, görürsünüz, Moskva Ermənistanı xristian, Azərbaycanı isə müsəlman ölkəsi adlandırır?

## "ATƏT, Minsk qrupu nəyə lazımdır?"

ATƏT-in Minsk qrupunun həmsədrləri ilə hər görüşlərdə və eləcə də digər tədbirlərdə ümummilli lider həmsədr ölkələrin, digər beynəxalq təşkilatların münaqişəni ədalətli nizamlamaq əvəzinə, qeyri-normal mövqeyinə sərt  münasibət göstərmişdi. Bu mənada ATƏT-in Minsk qrupunun həmsədrləri Rudolf Perina (ABŞ), Nikolay Qribkov (Rusiya), Üq Perne (Fransa), Rusiya Federasiyasinin xarici işlər nazirinin müavini Vyaçeslav Trubnikov və onlari müşayiət edən nümayəndə heyəti ilə görüşü misal gətirmək olar. Ulu öndər həmin görüşdə demişdir:

– İradım köhnə dostumuz Qribkova aiddir. O, Ermənistanda bəyan edir ki, Dağlıq Qarabağ danışıqların tamhüquqlu subyekti kimi, orada iştirak etməlidir. Ona görə də Qukasyan (qondarma Dağlıq Qarabağ respublikasınınn"prezidenti"- F.S.) hər gün deyir ki, Dağlıq Qarabağ danışıqlarda bilavasitə iştirak etməyincə, məsələ həll olunmayacaq. Axı Qukasyanın bunu hər gün deməsi sirr deyildir. Bu məsələ mən buraya gəldiyim vaxtdan müzakirə olunur və yaxşı tanıdığınız Kazimirov da bu məsələ ilə məşğul olmuşdur. Onlar Moskvada görüşürdülər və biz Dağlıq Qarabağın danışıqların bərabərhüquqlu iştirakçısı olması ilə heç vaxt razılaşmırdıq. Çünki biz onu tanımırıq, bizim müharibəmiz Ermənistanladır. Əgər Ermənistan kənara çəkilsə, biz beynəlxalq təşkilatlarda, sizin iştirakınızla, Dağlıq Qarabağa dair mühüm qərarlar qəbul edərik. Ermənistan isə bu qərarların qabağını kəsir... Qoy Ermənistan kənara çəkilsin, onda biz də Dağlıq Qarabağla birbaşa danışıqlar aparaq və qoy Ermənistan beynəlxalq təşkilatlarda bu işə qarışmasın. Amma bu belə deyildir. İndi Ermənistan, əslində, Dağlıq Qarabağı de-fakto özünə birləşdirmişdir. Axı, bu faktdır, orada prezident seçir. Mən bilmirəm, onlar orada görüşürlər, yoxsa yox, lakin Dağlıq Qarabağ Ermənistanın himayəsi altındadır. Buna görə də mən xahiş edirəm belə şeylərdən uzaq olun. Bundan başqa, bizi, ictimaiyyətimizi belə bir fakt da qıcıqlandırmışdır ki, həmsədrlər Qukasyanı prezident seçilməsi münasibətilə təbrik etmişlər. Axı Birləşmiş Ştatlar bəyan etmişdir ki, onlar bunu tanımırlar, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Rusiya da belə bəyanat vermişdir. O, qeyri-qanuni seçilmiş prezidentdir, ümumiyyətlə, bu, qanunsuz işdir. Əgər siz onu prezident seçilməsi münasibətilə təbrik edirsinizsə, deməli, onun prezident olmasını təsdiq edirsiniz. Mən bunu qeyri-normal hesab edirəm .

*(ardı var)*

*Faiq SADIQOV,*
*Əməkdar jurnalist*

Xalq qəzeti.- 2023.- 5 iyul.- S.5.